# GÖRKƏMLİ İQTİSADÇI ALİM, BÖYÜK ZİYALI

*Hər bir xalqın elmi, mənəvi, intellektual potensialının formalaşması və inkişafında onun ziyalıları, alimləri müstəsna dərəcədə aparıcı rola malik olurlar. Belə ziyalı alimlərdən biri də iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Milli Məclisin deputatı, ictimai-siyasi xadim Ziyad Əliabbas oğlu Səmədzadədir. Bu günlərdə görkəmli iqtisadçı alimin 80 yaşı tamam olur.*

*Akademik Z.Ə.Səmədzadə 1940-cı ilin iyun ayının 25-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1961-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1965-ci ildə namizədlik, 1971-ci ildə - 31 yaşında doktorluq dissertasiyası müdafiə etmiş, 1977-ci ildə isə professor elmi adını almışdır. Görkəmli iqtisadçı alim Ziyad müəllim 1980-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.*



Respublikamızın ictimaiyyəti onu böyük alim və praktik iqtisadçı, bacarıqlı təşkilatçı, qabaqcıl dünya təcrübəsinə və milli reallıqlara əsaslanan, müasir, mütərəqqi iqtisadi ideyaların daşıyıcısı və fəal tədqiqatçısı kimi tanıyır. Onun milli iqtisadiyyatın inkişafı, səmərəliliyi, strukturu, təhlükəsizliyi, təkrar istehsalın sürət və proporsiyaları, məşğulluq, demoqrafik proseslərə həsr olunmuş fundamental tədqiqatları, monoqrafiyaları, iqtisadi proseslərin konkret istiqamətlərinə həsr edilmiş çoxsaylı təhriri məruzələri Azərbaycanda bir sıra istiqamətlər üzrə elmi-iqtisadi məktəbin əsaslarını yaratdı.

Akademik Z.Səmədzadənin elmi tədqiqatları respublikamızın iqtisadi və sosial inkişafı ilə bağlı nəzəri və praktiki problemlərin işlənməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Bir qayda olaraq Ziyad müəllimin elmi araşdırmaları dərin sistemli təhlilə, nəzəri və praktiki məsələlərin vəhdət halında həllinə əsaslanır, problemlərin cəsarətli qoyuluşu və orijinallığı ilə seçilir.

Ötən əsrin 60-cı illərində Z.Səmədzadə əslində keçmiş SSRİ dövründə heç bir alim tərəfindən öyrənilməmiş bir problemi araşdırmağa başlayanda respublikada iqtisadi inkişaf və əmək məhsuldarlığının artım sürəti aşağı idi, əmək ehtiyatlarında qeyri-qənaətbəxş vəziyyət yaranmışdı. Əvvəlcə Respublikada Elmlər Akademiyasının Rəyasət Heyəti və Azərbaycan Dövlət Plan Komitəsi, daha sonra – 1969-cu ildə SSRİ Dövlət Elm və Texnika Komitəsi Z.Səmədzadənin bu problem barədə təşəbbüsünü dəstəklədilər. Onun elmi rəhbərliyi ilə Azərbaycan EA İqtisadiyyat İnstitutunda əmək məhsuldarlığı probleminə dair xalq təsərrüfatının strukturu və təkrar istehsal proporsiyaları ilə sıx qarşılıqlı əlaqədə intensiv tədqiqatlar aparılmağa başlanıldı. Mahiyyətcə respublikada iqtisadiyyat elminin yeni istiqaməti yaranmaqda idi. Z.Səmədzadənin doktorluq dissertasiyası "Əmək məhsuldarlığı və əhalinin məşğulluq strukturu problemləri" mövzusuna həsr edilmişdi. Bu tədqiqat Sovet İttifaqında əmək məhsuldarlığı problemlərinin kompleks halda nəzərdən keçirildiyi ilk sanballı elmi iş idi. Keçmiş İttifaqda və xaricdə görkəmli alim kimi tanınan prof. M.J.Sonin yazırdı ki, bu problemləri küll halında, nəzəri cəhətdən birinci olaraq Z.Səmədzadə təhlil etmişdir.

Z.Səmədzadə ilk dəfə olaraq respublika sənayesini səciyyələndirən materiallar əsasında əməyin səmərəliliyi göstəricilərini xalis məhsula görə hesablamış və konkret elmi nəticələr almışdı. Çox böyük həcmdə statistik informasiya və sənayenin, demək olar ki, bütün sahələrinin, konkret müəssisələrin məlumatları əsasında, gərgin zəhmət bahasına görülmüş bu iş İttifaq alimləri, Respublika Dövlət Plan Komitəsi tərəfindən yüksək qiymətləndirilmişdi. Perspektiv araşdırmalar, sənayenin inkişafında yeni meyillər axtarışı, elmi fəaliyyət üçün yeni ideyalar irəli sürən konsepsiyaların yaradıcı şəkildə araşdırılması, tənqidi mövqedən təhlil edilməsi və məsələyə qeyri-standart yanaşılması alimə imkan verdi ki, maddi istehsal sahəsinin hüdudları, cəmiyyətin tərəqqisində qeyri-istehsal sahələrinin ikinci dərəcəli rol oynaması barədə şüurlarda kök salmış təsəvvürlərdən imtina etməyin zəruri olması haqqında orijinal nəticələr əldə etsin. Z.Səmədzadə hələ 50 il bundan əvvəl qeyri-istehsal sahəsinin strukturunun yaxşılaşdırılmasını qanunauyğun bir hal və respublikanın tərəqqisi amili hesab edirdi. Bütövlükdə Azərbaycanın xalq təsərrüfatında əmək məhsuldarlığının dinamika və səviyyəsi, onun əsas amillərinin sistemli təhlili, iqtisadiyyatda struktur irəliləyişləri ilə qarşılıqlı əlaqənin dərin təhlili, iqtisadi tərəqqi faktorları barədə dolğun elmi konsepsiyanın formalaşması məsələləri də Z.Səmədzadənin fəaliyyəti ilə bağlıdır.

Alimin əhalinin məşğulluq strukturu və iqtisadi inkişaf problemlərinə dair orijinal araşdırmalarında professor M.M.Allahverdiyevin böyük rol oynaması demoqrafiya və əmək ehtiyatları elmi məktəbinin inkişafına kömək etmiş, yeni tədqiqat istiqamətlərinin, o cümlədən iqtisadi tərəqqi ilə məşğulluğun strukturu, əmək ehtiyatlarının sahə və ərazi proporsiyaları, urbanizasiya, aqrar sektorda əmək məhsuldarlığı problemləri arasında qarşılıqlı əlaqələrin tədqiq edilməsi zərurətini əsaslandırmışdır. Bütün bu mürəkkəb aspektli problemlər üzrə alimin əldə etdiyi cəsarətli və orijinal nəticələr yüksək elmi təfəkkürə, zəngin faktiki materiala, elmi analiz üçün əslində əlçatmaz olan bütün müttəfiq respublikaların milli gəlir, əmək resursları balansının müqayisəli təhlilinə əsaslanırdı. Alim mərkəzi iqtisadi orqanların diqqətini ona cəlb edirdi ki, respublikada iqtisadi vəziyyətin qiymətləndirilməsi reallıqdan uzaq olduğu kimi, milli gəlirin artımına təsir edən intensiv və ekstentiv amillər barədə də həmin orqanların mövqeyi yanlışdır.

1973-cü ildə Ziyad müəllimin, zənnimizcə, bu gün də əməli və elmi əhəmiyyətini azaltmayan «xidməti istifadə üçün» qrifi ilə «Əmək məhsuldarlığı və iqtisadi inkişafın xalq təsərrüfatı proporsiyalarının aktual problemləri» və «Əmək məhsuldarlığı və iqtisadi inkişafın proporsiyalarının regional problemləri» adlı iki təhruri məruzəsi çapdan çıxdı. Bu təhruri məruzələrində müəllif Azərbaycanda iqtisadi inkişafın mövcud vəziyyətini sistemli təhlil etmək və dəyərləndirməklə perspektiv dövrə tətbiqən onun inkişaf strategiyasının prioritetlərini, xalq təsərrüfatı proporsiyalarının optimallığını və bütünlükdə, sosial-iqtisadi inkişafın prioritetlərinin konseptual əsaslarını müəyyənləşdirmişdir.

Ziyad müəllim həmin illərdə zəngin konkret materiallar əsasında keçmiş SSRİ-nin müttəfiq respublikalarında adambaşına düşən milli gəlirin səviyyəsini, onun artım sürətini İttifaq səviyyəsi ilə qarşılıqlı əlaqədə və müqayisədə təhlil edərək, yaxın gələcək üçün respublikamızda iqtisadi inkişafın təmin edilməsinin başlıca əməli problemlərinin həllinin imkan və yollarını müəyyənləşdirərək, elmi və əməli cəhətdən əsaslandırdı.

XX əsrin 70-ci illərində keçmiş SSRİ məkanında elmi-texniki tərəqqinin sürətləndirilməsi əsasında iqtisadiyyatın inkişaf etdirilməsi mühüm bir vəzifə kimi qarşıya qoyuldu. Bu dövrdə Ziyad müəllimin rəhbərliyi və müəllifliyi ilə 1972-ci ildə «Elmi-texniki tərəqqi və ictimai istehsalın səmərəliliyi» adlı (birgə yazılmış) kitab çapdan çıxdı. Bu kitabda Azərbaycanda iqtisadi inkişafın intensiv inkişafı zərurəti əsaslandırılmaqla yanaşı, xüsusi vurğulandı ki, hər bir respublika, o cümlədən Azərbaycan fərqli təbii, əmək və material ehtiyatları balansına malik olur. Belə bir şəraitdə xalq təsərrüfatının mövcud strukturundan asılı olaraq, fərqli intensiv inkişaf tipinə əsaslanmaqla, o, milli iqtisadiyyatın perspektiv baxımından dinamik, səmərəli və tarazlı inkişafına səbəb olmalıdır. Ona görə də Ziyad müəllim müttəfiq respublikalarda səmərəlilik göstəricilərini dəyərləndirərkən hökmən fond, material və əmək tutumunun «son hədd» artım göstəricilərindən qarşılıqlı əlaqə və asılılıqda istifadə olunmasını zəruri hesab edirdi. Bu metodoloji yanaşma XX əsrin 90-cı illərində bir çox MDB ölkələrində geniş istifadə olunmağa başlandı.

Ümumən, Ziyad müəllim 1970-1974-cü illərdə apardığı elmi tədqiqatlara görə SSRİ və respublika səviyyəsində mükafatlara layiq görülmüşdür. 1975-ci ildə Moskvada nəşr edilən **«Державенная молодость»** kitabında dünya miqyaslı məşhur SSRİ alimləri - akademik E.Velixov və M.Petrovla yanaşı, Ziyad müəllimin apardığı tədqiqatların əhəmiyyəti və aktuallığı haqqında böyük bir yazı da dərc olunmuşdur.

Həmin illərdə Ziyad müəllimin rəhbəri olduğu AMEA İqtisadiyyat İnstitutunun «Xalq təsərrüfatının inkişaf sürəti və proporsiyalar» şöbəsi SSRİ Elm və Texnika Komitəsinin maliyyələşdirməsi əsasında SSRİ EA-nın İqtisadiyyat İnstitutu, SSRİ Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat İnstitutu və Gürcüstan SSRİ EA-nın İqtisadiyyat İnstitutu ilə birgə «Milli gəlirin təkrar istehsalı» mövzusu üzrə çox ciddi tədqiqatlar aparmışlar.

Akademik Səmədzadə elmi tədqiqatlarında daim uzaqgörənliklə belə bir prinsipial müddəanı əsas götürürdü ki, ölkəmizin malik olduğu resurslar balansı, ondan istifadə dərəcəsi, elmi-texniki tərəqqinin mövcud inkişafı səviyyəsində yaxın perspektivdə hərəkətə gətirilə bilən potensial nəzərə alınaraq Azərbaycanın iqtisadi inkişaf strategiyasının müəyyənləşdirilməsinə belə yanaşma bu gün də aktualdır.

Doğrudur, ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirilən tədbirlər nəticəsində sonradan iqtisadi inkişafın artım sürəti İttifaq səviyyəsindən xeyli yüksək olmuşdur. Bununla yanaşı, bu illərdə iqtisadiyyatın strukturunda baş verən dəyişikliklər daha çox iqtisadi artımın kəmiyyətcə sürətinin təmin olunmasına istiqamətlənmişdi. Belə bir şəraitdə iqtisadiyyatın strukturunda baş verən dəyişikliklərin bütünlükdə ictimai istehsalın səmərəliliyinin artırılması baxımından araşdırılması müstəsna əhəmiyyət kəsb edirdi.

Onun «İctimai istehsalın quruluşu və səmərəliliyi" (rus dilində) adlı monoqrafiyası xüsusi qeyd olunmalıdır. Ziyad müəllim ötən əsrin 70-80-ci illərində milli gəlirin yığım və istehlak fonduna bölgü nisbətlərini və onların hər birinin daxili quruluşunu konkret təhlil edərək belə bir qənaətə gəlirdi ki, istehlak və yığım fondunun ilk baxışdan qənaətbəxş görünən nisbətləri bir çox hallarda respublikamızın əsaslı iqtisadi maraq və mənafeləri baxımından əslində o dərəcədə də əlverişli deyildir.

Ümumiyyətlə, Ziyad müəllimin 1970-1990-cı illərdə apardığı tədqiqat işlərini qiymətləndirməyə cəhd etsək qeyd etməliyik ki, o, respublikamızın həmin illərdəki mövcud sosial-iqtisadi inkişafını sadəcə olaraq amillər üzrə təhlil etmir, eyni zamanda, dünyada baş verən mütərəqqi meyillərlə yanaşı, Azərbaycan reallığını da nəzərə alaraq, keçmiş SSRİ daxilində ölkəmizin konkret sosial-iqtisadi inkişafının konseptual əsaslarını formalaşdırmışdır.

Bu baxımdan onun 1988-ci ildə çapdan çıxmış **«Azərbaycan SSR-in iqtisadi müstəqilliyi və onun təsərrüfat hesabına və özünü maliyyələşdirməyə keçməsi haqqında», «Azərbaycan SSR-in iqtisadi müstəqilliyi haqqında»** fundamental məqalələrində və Azərbaycanın iqtisadi müstəqillik konsepsiyası barədə Azərbaycan SSR-in Ali Sovetinin sessiyasında (1989-cu ildə) məruzəsində irəli sürülən problemlər və onların konkret həlli yolları işdə göstərilir.

Akademik Ziyad Səmədzadə 1990-2000-ci illərdə dünya təcrübəsini və milli reallıqları nəzərə alaraq, çox zəngin konkret materiallar əsasında sistemli tədqiqat işləri apararaq, ölkəmizdə iqtisadi artımı təmin edən potensialı, amil və imkanları, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin prioritetlərini, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin səviyyəsini elmi-metodoloji cəhətdən əsaslandırmışdır. Bununla yanaşı, onun **«Ümumbəşəri problemlər və Azərbaycan», «Azərbaycan iqtisadiyyatı XX əsrdə: inkişaf mərhələləri, problemlər» «XXI əsrin birinci onilliyində iqtisadi inkişafın konsepsiyaları haqqında düşüncələr»** adlı məqalələri Azərbaycanın iqtisad elmində mühüm bir hadisə kimi qiymətləndirilməlidir. Ziyad müəllim belə hesab edir ki, XX əsrin son qərinəsində Azərbaycan iqtisadiyyatında iqtisadi artımın təmin edilməsinin dəyərləndirilməsi və köhnə iqtisadi sistem daxilində reallaşdırılması mümkün olmayan potensialı yenidən qiymətləndirmək, müstəqillik illərindəki iqtisadi inkişaf konsepsiyasının işlənib hazırlanmasını obyektiv zərurətə çevirdi.

Alimin fikrincə, XXI əsrin astanasında iqtisadi inkişaf məsələlərinə yeni baxışların formalaşması istiqamətində də böyük işlər görülməlidir. Bu gün elə bir vəziyyət yaranmışdır ki, heç bir dövlət düzgün iqtisadi siyasət yeritmədən sabit inkişaf edə bilməz. Ona görə də bu sahədəki boşluqları doldurmaq, prioritet istiqamətləri indidən müəyyən etmək bizə nisbətən ucuz başa gələ bilər və ağrılı nəticələri xeyli yumşaldar.

Akademik Z.Səmədzadə «XXI əsrin birinci onilliyində iqtisadi inkişafın konsepsiyaları haqqında düşüncələr» adlı məqaləsində elmi uzaqgörənliklə yazırdı: «XXI əsr cəmiyyətin inkişafında insan amilinin rolunun müqayisəedilməz dərəcədə artması ilə xarakterizə ediləcəkdir. İntellektual potensiala, intellektual mülkiyyətə tələb əhəmiyyətli dərəcədə artacaq, informasiya sahəsində XX əsrin ikinci yarısında baş verən inqilabi dəyişikliklər daha da dərinləşəcək, informasiya bir çox dövlətlərin, sözün əsl mənasında, strateji resursuna çevriləcəkdir. Elm, elmi-texniki potensialdan istifadənin sərhədləri xeyli geniş-